*Aysel Kərim*



## *Başını dik tut vətən*

*Qoy başına dönüm sənin,*
*Azalsın bütün dərd-sərin.*
*Yerinə mən başımı əyim,*
*Sən başını dik tut, vətən!*

*Yenilməsən, yenilmərik,*
*Hər an sənlə bərabərik.*
*Biz qürurlu bir millətik,*
*Sən başını dik tut, vətən!*

*Canımızdan dəyərlisən,*
*Aldığımız nəfəs sənsən.*
*Babalardan əmanətsən,*
*Sən başını dik tut, vətən!*

*Səndə yatar əcdadımız,*
*Sənə bağlı bu qanımız.*
*Sənsiz qopar harayımız,*
*Sən başını dik tut, vətən!*

*Torpağında izim qalar,*
*Vətən adlı sözüm qalar.*
*Bir daş dəysə, gözüm dolar,*
*Sən başını dik tut, vətən!*

*Dağın-daşın olum sənin,*
*Hilal qaşın olum sənin,*
*Qoy göz yaşın olum sənin,*
*Sən başını dik tut, vətən!*
*Azərbaycan bayrağı*

## *Heyf*

*O, elə yandı ki, külü də bitdi,*
*Əlində-ovcunda nə varsa, getdi.*
*Gerçək yalan oldu, yalan da gerçək,*
*Savaş davam etdi, o gözdən itdi.*

*Heyf çəkdiyimiz o çilələrə,*
*Çilik-çilik oldu güvəndiklərim.*
*Heyf o çəkilən işgəncələrə,*
*Başına gül təki ələndiklərim.*

*Mənim qəzəbimdən qorxmasa belə,*
*Tanrının qəzəbi onu yıxacaq.*
*Özü yuvarlayıb o axan selə,*
*Sonra xilas edib qucaqlayacaq.*

## *Gecdir artıq*

*Gecdir artıq - olan oldu,*
*Göz yaşları fayda verməz.*
*Anla ki, bu bir oyundu,*
*Gerçək deyil, fikrə dəyməz.*

*Qucaqlayıb dizlərini,*
*Boyun büküb oturmusan.*
*Acıların izlərini,*
*Bir-bir sayıb, toxunmusan.*

*Qəlbini aç bir nəfəs al,*
*İşıq saç qaranlığına.*
*Hisslərinə bir qəfəs al,*
*Açma onu hər adama.*

*Təbəssümü bir tuzaqdır,*
*İnamım qalmadı sənə.*
*Dünya o qədər uzaqdır,*
*Yaxınlaşmaq istəyənə.*

## *Alqış düşür*

*Sənə alqış düşür, məni mən edən,*
*Əriməz dediyim qarı əridən.*
*Nə bir qanun bilən, nə qayda bilən,*
*Səni də məzlumun adı tutacaq.*

*Tanrı, keç səhvimdən, məni əfv elə,*
*Fərz et ki, gileyim gəlməmiş dilə.*
*Kaş bütün ölülər bir gün dirilə,*
*Görə günahkarı günah udacaq.*

*Bəlkə də keçmişsən, ya da gələcək,*
*Ya heç keçməmişsən, ya gəlməyəcək.*
*Bəlkə də bağrını dəlib keçəcək,*
*Heyf gec olacaq, bax, onda ancaq.*